

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 143 (24.280)

*10 avqust 2023-cü il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## M.İ.Adnayevanın Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mahirə İsmayıl qızı Adnayeva Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 avqust 2023-cü il*

## Dövlət qulluğuna qəbul məsələlərinin müzakirəsinə dair tədbir keçirilib

*Naxçıvan Şəhər İcra Hakimiyyətinin inzibati binasında Naxçıvan Muxtar Respublikasında yerləşən mərkəzi, yerli icra hakimiyyətləri orqanları, məhkəmə orqanları və digər dövlət qurumlarında qulluq keçən dövlət qulluqçuları ilə dövlət qulluğuna qəbul məsələlərinin müzakirəsinə dair tədbir keçirilib.*





Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin direktoru Sabir Məmmədov açıb. Qeyd olunub ki, müasir dövlət qulluğu, dövlət idarəetmə kadrlarının fəaliyyəti ölkədə sabitliyi təmin edən və baş verən dəyişikliklərə uyğunlaşan çevik və səmərəli dövlət mexanizminin əsasını təşkil edir. Hər bir hakimiyyətin başlıca nailiyyətlərindən biri geniş və qlobal miqyasda düşünməyi və lokal şəkildə fəaliyyət göstərməyi bacaran kadrlardır. Bu gün keçirilən təlimin məqsədi də muxtar respublikada qulluq keçən dövlət qulluqçularının dövlət qulluğu məsələləri üzrə biliklərinin təkmilləşdirilməsi, dövlət qulluğu vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar müəyyən edilmiş tələblər barədə məlumatlandırılmasından ibarətdir. Eyni zamanda təlimdə dövlət qulluğu məsələləri ilə bağlı qanunvericiliyin tətbiqi, o cümlədən dövlət qulluğuna qəbulun şəffaflığı və vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi məsələlərinə toxunulacaq. Həmçinin dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi, xidməti fəaliyyətin qiymətləndirilməsi və dövlət qulluqçularının mükafatlandırılması, dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onların rotasiyası, dövlət qulluqçularının etik davranış qaydaları və dövlət qulluğunda hazırkı çağırışlarla əlaqədar məsələlər müzakirə olunacaq.

Tədbirdə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat, insan resursları və dövlət qulluğu departamentinin müdiri Nərminə Bayramovanın çıxışı olub. Qeyd edilib ki, hər bir ölkənin uğurlu inkişafı onu idarə edən rəhbər kadrların uzaqgörənliyindən, strateji düşünmə qabiliyyətindən, bütövlükdə, dövlət qulluğunda çalışanların ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulmuş vəzifələri peşəkarlıqla yerinə yetirməsindən, öz işinə nə dərəcədə məsuliyyətlə yanaşmasından, müasir dünyanın tələblərini bilməsindən, öz bilik və bacarığını daim təkmilləşdirməsindən çox asılıdır. Bu baxımdan dövlət qulluqçularına verilən tələblər çox yüksəkdir. Ölkə Prezidenti dəfələrlə qeyd etmişdir ki, Azərbaycanın gələcəyini peşəkar və səriştəli kadrlar yaradacaqdır. İndi dövlət idarəetməsində insan potensialının üstünlüyünə, dövlət qulluqçusunun işgüzarlıq, mənəvi və intellektual keyfiyyətlərinə daha çox əhəmiyyət verilir. Bu, bir həqiqətdir ki, yalnız peşəkarlığı yüksək olan kadrlar sayəsində dövlət qurumlarının səmərəli fəaliyyətini təmin etmək olar.

Vurğulanıb ki, dövlət qulluğunda peşəkarlığın artırılmasına təkan verən amillərdən biri dövlət qurumlarında müasir idarəetmə formaları və sistemlərinin tətbiq edilməsidir. Tətbiq olunan yeni idarəetmə formaları işçilərin həmin forma və metodları mənimsəməsinə, öz bilik və bacarığını artırmasına, müasir tələblərə uyğunlaşmasına səbəb olur.

Hazırda respublikada dövlət qulluqçularının peşəkarlığını artırmaq üçün bütün dövlət qurumlarında böyük işlər görülür.

Sonra təlimlərə start verilib. Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin Vəzifələrin idarə edilməsi və ehtiyat kadrlarla iş sektorunun müdiri Rüfət Ağayevin "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları", həmin şöbənin Dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasovun "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları", Mərkəzin Dövlət informasiya resursları departamentinin Dövlət qulluqçularının reyestrinin aparılması və ehtiyat kadrların qeydiyyatı sektorunun müdiri Sakit Əliyevin "Dövlət qulluqçularının Reyestrinin aparılması qaydaları" mövzularında slaydlar əsasında təqdimatları olub.

Sonda dəyirmi masa ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

Qeyd edək ki, dövlət qulluqçuları üçün təlimlər bu gün də davam edəcək.

## Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna daha yüksəkixtisaslı, peşəkar mütəxəssislər cəlb olunacaq

Tədbirdən sonra ***Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat, insan resursları və dövlət qulluğu departamentinin müdiri Nərminə Bayramov***a "Şərq qapısı" qəzetinə müsahibə verib. Həmin müsahibəni oxuculara təqdim edirik: "Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafa yönəlmiş və strategiyada da təsdiq olunmuş islahatlara başlanılıb. Bu islahatların bir hissəsi də dövlət qulluğu sahəsində aparılır. Bildiyiniz kimi, Naxçıvan Dövlət İmtahan Mərkəzi ləğv edilib. Naxçıvan Muxtar Respublikasında da dövlət orqanlarına dövlət qulluqçularının qəbulu, inzibati vəzifələrin tutulması Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcəkdir. Bu sahədə görüləcək işlər çərçivəsində ilk addım ondan ibarətdir ki, bu gün Naxçıvandakı dövlət orqanlarının müvafiq struktur qurumları ilə görüşlər keçirilsin, təqdimatlar aparılsın. Məqsəd hansı tədbirlərin həyata keçirilməli, hansı addımlar atılmalı olduğunu müəyyən edib, qısa müddət ərzində bu qəbulun Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilməsini təmin etməkdir. Bunun nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna daha yüksəkixtisaslı, peşəkar mütəxəssislər cəlb olunacaq.



Bildiyiniz kimi, dövlət qulluğuna qəbul üçün dünya trendləri müəyyən olunub. Dövlət İmtahan Mərkəzi (DİM) bu sahədə işlər aparır. Azərbaycan Respublikasında dövlət qulluğuna qəbul islahatlar dönəmindədir. Hazırda səriştə modelinə keçid həyata keçirilir. Bunun üçün DİM böyük tədbirlər həyata keçirir. Artıq Naxçıvanda dövlət qulluğuna qəbul da bu prosesin tərkib hissəsi olacaq. DİM üçün növbəti mərhələ isə Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçularının təlim ehtiyaclarını öyrənməkdir. Gələn aylarda da bu təlimlərin aparılması nəzərdə tutulur. Bu həm də Azərbaycan Respublikasının digər bölgələrində də yaşayan vətəndaşların Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna cəlb olunmasına gətirib çıxaracaq və Naxçıvana müsbət hal kimi təsir edəcəkdir. "Dövlət qulluğu haqqında Qanun"a müvafiq olaraq ayda bir dəfə Bakı şəhərində sertifikat imtahanları keçirilir. İnteqrasiya mümkün olduqdan sonra həmin imtahanların Naxçıvan şəhərində də keçirilməsi nəzərdə tutulur. Həmin sertifikat Naxçıvanda olan şəxslərin Azərbaycan Respublikasının digər dövlət orqanlarına da müraciət etməsinin mümkünlüyünə şərait yaradacaq. Bu proses ikitərəflidir, həm Naxçıvan Muxtar Respublikası digər bölgələrdə yaşayan mütəxəssisləri cəlb edə biləcək, həm də muxtar respublikadakı mütəxəssislər digər regionlarda yerləşən dövlət orqanlarında işləmək imkanı əldə edəcəklər. Bütün imtahan və müsahibə mərhələsi Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək. Mütəxəssislər elektron qaydada müraciət etdikdən sonra onlayn müsahibə mərhələsində iştirak edəcəklər. Beləliklə, mütəxəssislərin imkanları təkcə Naxçıvan Muxtar Respublikası ilə məhdudlaşmamış olacaq".

**Gülcamal TAHİROVA**

## Naxçıvanda Vergiödəyicilərinə xidmət mərkəzinin fəaliyyət dairəsi genişlənir

Sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin daha da yaxşılaşdırılması, vergiödəyicilərinə göstərilən xidmətlərin daha əlçatan olması məqsədilə Naxçıvan Şəhər Vergilər İdarəsinin Vergiödəyicilərinə xidmət mərkəzi fəaliyyət dairəsini genişləndirir.

Naxçıvan Şəhər Vergilər İdarəsinin xidmət strukturu tərəfindən 2023-cü ilin yanvar-aprel aylarında göstərilən xidmətlərin orta günlük sayı 46 olduğu halda, may ayında istifadəyə verilən xidmət mərkəzi tərəfindən may-iyul aylarında xidmətlərin orta günlük sayı 114, yəni 2,4 dəfə çox olub. May-iyul ayları ərzində Vergiödəyicilərinə xidmət mərkəzində, ümumilikdə, 4328 vətəndaş qəbul edilib və onlara 6955 xidmət göstərilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə qəbul edilmiş vətəndaşların sayından 1,8 dəfə, göstərilən xidmətlərin sayından isə 2,8 dəfə çoxdur.

Xidmətlər, əsasən, vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu və vergi orqanlarında qeydiyyat, bəyannamələrin, cari vergi ödəmələrinin hesablanması barədə arayışın təqdim edilməsi, elektron sənəd mübadiləsinin aparılması üçün istifadəçi kodu, şifrə və parolun, "Asan imza" sertifikatının verilməsi və digər məsələlərlə bağlı olub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Abidədə təmir-bərpa işləri görülür

Muxtar respublikamızın sosial-iqtisadi inkişaf istiqamətlərindən birini də diyarımızda həyata keçirilən tikinti-quruculuq, abadlıq və yenidənqurma işləri təşkil edir. Naxçıvan şəhəri daxil olmaqla, muxtar diyarımızın demək olar ki, bütün rayonlarında yollar çəkilir, köhnə tikililər bərpa olunur, binaların fasad örtüyü yenilənir və bir sıra digər layihələr icra olunur. Bu işlərin davamı kimi, Şahbuz şəhərində xalqımızın tarixində önəmli yer tutan soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün ucaldılmış abidədə bərpa işləri aparılır. Şahbuz Rayon İcra Hakimiyyəti Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Sənan Əliyarlıdan aldığımız məlumata əsasən Şahbuz Rayon Kommunal Müəssisəsi tərəfindən görülən bərpa işləri hazırda davam etdirilir. Rayon mərkəzinin 28 May küçəsində hündürlüyü 5 metrə yaxın olan abidənin ətrafında yerləşən köhnə, yararsız daşlar sökülüb yenisi ilə əvəz olunub. Həmçinin abidənin ətrafında təmizlik işləri aparılıb, 30 kvadratmetrə yaxın hissədə mərmər örtüyü dəyişdirilib. Təmir-bərpa işlərinin yaxın günlərdə başa çatacağı gözlənilir.



Qeyd edək ki, Şahbuz şəhərində yol kənarında yerləşən işıq dirəklərində də yararsız, istifadə müddəti başa çatmış lampalar yenisi ilə əvəz olunur.

**Süreyya QƏDİMƏLİYEVA**

# Vəli Baxşəliyev: *“Tarix-mədəniyyət abidələri mütəxəssislərin iştirakı ilə bərpa olunmalı, tarixi görkəmi qorunub saxlanılmalıdır”*

*Qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan ərazisində müxtəlif təyinatlı tarix və mədəniyyət abidələri mövcuddur. Abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyası milli sərvətlərimizin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bu mənada, böyük əhəmiyyət daşıyır və gələcəkdə tarixi-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bərpa layihələrinin hazırlanması, tarixi eksponatların qorunması, arxeoloji araşdırmalar aparılması və sair nəzərdə tutulur, tarixi-memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılmasını ön plana çıxarır. Müsahibimiz Naxçıvanın qədim tarixi və arxeoloji abidələri ilə bağlı zəngin tədqiqatlar aparan, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevdir.*

***– Vəli müəllim, əvvəlcə öyrənmək istərdik ki, adıçəkilən Dövlət Proqramı Naxçıvanın gələcək inkişafına nə kimi töhfə verəcək?***

– Ölkə başçısı tərəfindən qəbul edilən müvafiq Dövlət Proqramı Naxçıvanın gələcəkdə sosial-iqtisadi inkişafı üçün baza yaradacaq və 2027-ci ildən sonra da ölkəmizin irəliyə doğru inkişafının addımları atılacaqdır. Muxtar respublikamızda müasir tələblərə cavab verən sənaye və kənd təsərrüfatı müəssisələrinin, yeni iş yerlərinin yaradılması əhalinin sosial təminatının yaxşılaşması və insanların burada sıx məskunlaşmasına şərait yaradacaq. Bildiyiniz kimi, hazırda Azərbaycanın Qarabağ bölgəsində əhalinin məskunlaşması ilə bağlı müəyyən tədbirlər görülür və ilk olaraq orada infrastruktur, iş yerləri yaradılır və insanlar köçürülür. Bu mənada, Dövlət Proqramı gələcəkdə Naxçıvanın iqtisadi inkişafına və bunun əsasında sosial inkişafına böyük təkan verəcək.

***– Naxçıvanın qədim tarixinin, tarix-mədəniyyət abidələrinin daha yaxşı öyrənilməsi, tədqiqi, bərpası baxımından hansı işlər görülməlidir?***

– Müvafiq Dövlət Proqramında tarix-mədəniyyət abidələrinin öyrənilməsi və bərpası ilə bağlı müəyyən işlərin görülməsi nəzərdə tutulur. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının tarix və mədəniyyət abidələrinin öyrənilməsi ilə bağlı müəyyən işlər görülübdür. AMEA Naxçıvan Bölməsinin apardığı tədqiqat işləri nəticəsində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınıb. Əlbəttə ki, bunların hamısını eyni vaxtda öyrənmək mümkün deyil. Onları qoruyub saxlamaq, mühafizə etmək ən vacib məsələlərdən biridir. Bəzi abidələrimiz əkin yerlərinin, bəziləri tikinti obyektlərinin kənarındadır. Buna görə biz bəzən insanların laqeyd münasibəti ilə rastlaşırıq. Bu da tarix və mədəniyyət abidələrimizin dağılmasına gətirib çıxarır. Həmin bölgədə yaşayan, işləyən insanlara, müvafiq icra hakimiyyətinə, eyni zamanda fermerlərə, sənaye müəssisələrinin sahiblərinə bu haqda müəyyən maarifləndirici məlumatlar verilməlidir ki, onlar bu abidələri məhz özləri qorumalıdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən tarix və mədəniyyət abidələrini qorumaq hər bir vətəndaşın borcudur.

Abidələr gələcəkdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq tədqiq olunmalıdır. Onların tədqiqi üçün müəyyən miqdarda vəsait lazımdır və əlbəttə ki, bunun hamısını birdən-birə büdcədən ayırmaq olmur, ona görə də tədricən tədqiq edilməli, eyni zamanda müəyyən qismi də bərpa, konservasiya olunmalıdır. Bizdə bəzən abidələrin bərpasına önəm verilir, milyonlarla pul xərclənir, lakin abidələrin konservasiyasına diqqətlə yanaşılmır.



Elə abidələrimiz var ki, onların əsaslı bərpası böyük vəsait tələb edir, lakin onların konservasiya olunması və mühafizəsi o qədər də böyük vəsait tələb etmir. Ona görə də onları qoruyub saxlamaq, ilkin olaraq konservasiya etmək lazımdır, yəni olduğu vəziyyətdə mühafizə etmək, dağılmasının qarşısını almaq, gələcəkdə isə həm tədqiq, həm də bərpa etmək olar.

***– Ən önəmli nüanslardan biri də abidələrin restavrasiya, bərpa prosesinin düzgün, qədim tarixə uyğunlaşdırılmış şəkildə aparılmasıdır. Bu mənada, Naxçıvanda vəziyyət necədir?***

– Əlbəttə ki, tarix-mədəniyyət abidələri mütəxəssislərin iştirakı ilə bərpa edilməlidir, eyni zamanda həmin bərpa ilə məşğul olan insanlar bu sahədə müəyyən ixtisas sahibləri olmalıdırlar. Çünki sıradan bir usta həmin tarix-mədəniyyət abidəsini bərpa edə bilməz. Ortaya çıxan nöqsanlar da bununla bağlıdır. Abidələrin bərpası ilə birbaşa bu sahə üzrə ixtisaslaşmış ustalar deyil, inşaat işçiləri məşğul olublar. Bəzi abidələr bərpa edilərkən onların müasirləşdirilməsinə yol verilib, qədim dövrlərə, orta əsrlərə aid tikinti texnikası nəzərə alınmayıb. Onların daha möhkəm olması üçün sementlə bərkidilməsi, daha yaxşı görünməsi üçün boyanması hallarına rast gəlirik ki, bu da yolverilməzdir. Hər hansı tarixi abidənin gözəlliyi onun tarixi görkəmindədir. Yəni onun üzərinə boya vurmaq, onu gözəlləşdirmək və yaxud da müəyyən mozaika ilə onun yaxşı görünməsinə çalışmaq olmaz. Abidə olduğu kimi, orijinal şəkildə bərpa edilməlidir. Məsələn, Gülüstan türbəsi orijinallığa uyğun bərpa olunubdur, amma abidənin hissələri müxtəlif rənglərə boyanıbdır, tamamilə müasir görkəmə salınıbdır ki, bu da onun tarixi bir abidə olması ilə bağlı tamaşaçılarda şübhə yaradır. Eyni zamanda körpülərin bərpası zamanı onların bəzilərinin daşlarının arasına sement doldurulması, əlavə tikintilərin aparılması, boyanması hadisələrinə də rast gəlirik. Bəzi abidələrin bərpası zamanı isə əlavə inşaat işləri aparılıb, minarələr, günbəzlər qoyulubdur. Məsələn, Naxçıvan şəhərində yerləşən, xalq arasında Zaviyə məscidi deyilən abidənin rənglənməsi heç də düzgün deyil, eyni zamanda günbəz hissəsi qüsurlu şəkildə bərpa olunubdur. Bu cür hallara yol verməyə ehtiyac yoxdur. Abidə necədirsə, olduğu görkəmində saxlanmalıdır.

***– Vəli müəllim, Naxçıvan Muxtar Respublikasının bəzi tarixi-memarlıq abidələrinin gələcəkdə UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması ilə bağlı nə deyərdiniz?***

– Naxçıvanda çox qədim, eyni zamanda tarixi abidələr var. Sədərək Kültəpəsi, Qazançıqala, Oğlanqala kimi bizim dünya əhəmiyyətli abidələrimizi UNESCO-nun mədəni irs siyahısına salmaq mümkündür. UNESCO-nun siyahısına salmaqda əsas məqsəd odur ki, abidələr beynəlxalq səviyyədə qorunsun. Elə bilirəm ki, hər bir xalq öz tarix və mədəniyyət abidəsini özü qorumalıdır. Fransadan, İngiltərədən, Amerikadan gəlib bizim abidələri heç kəs qorumayacaq. Yəni o siyahıya salınsa belə bu abidələrin qorunması yenə də bizim borcumuzdur. Ona görə də abidələrin mühafizəsini, qorunmasını təşkil etmək, bəzi tarix və mədəniyyət abidələrinə mühafizəçi təyin etmək xüsusilə lazımdır. Məsələn, xarici ölkələrdə belədir, hər hansı bir arxeoloji abidə tədqiq edilirsə, ora mütləq mühafizəçi təyin olunur və onun icazəsi olmadan heç kəs oraya gedib-gələ bilmir. Əlbəttə, abidəyə hər kəs gedib baxa bilər, lakin bura kim gəlir, kim gedir, abidəyə gedərkən oranın daşlarını sökmək, üzərinə əlavə yazı yazmaq hallarına rast gəlinir ki, mühafizəçilər bunlara nəzarət edirlər, eyni zamanda abidələri ziyarət edən insanlar məlumatlandırılır. Təəssüf ki, bizdə bu hal gözlənilmir. Xarabagilan kimi böyük bir abidəmiz var. Hər il ora dağıntıya məruz qalır. Təkcə vətəndaşlar tərəfindən deyil, eyni zamanda iri müəssisələr tərəfindən. Traktorla, buldozerlə oranın kürənməsi, dağılması hallarına tez-tez rast gəlinir. Və bu iş indi də davam edir və qarşısı mütləq alınmalıdır.

***– Necə?***

– Bəzi abidələr kəndlərin içərisində, kəndlərin yaxınlığında yerləşir və tikinti işləri zamanı dağıntıya məruz qalır, ona görə də mütləq lövhələr qoyulmalıdır. Eyni zamanda kəndlərin içərisində yerləşən abidələrin müəyyən çəpərə alınmasına ehtiyac var. Xarabagilanda buna ehtiyac yoxdur, sadəcə, mühafizə olunmalıdır, amma o abidələr ki bizim kəndlərimizin içərisində yerləşir, onların ətrafı çəpərlənməlidir ki, inşaat işləri apararkən oranı dağıtmasınlar.

***– Tarixi abidələrin qorunması ilə bağlı hər hansı layihə, işlər həyata keçirilibmi?***

– Keçən illərdə “İlandağ” geoparkının yaradılması ilə bağlı müəyyən işlər görüldü, sənədlər hazırlandı, lakin bu işlər hələlik yarımçıq qalıb. Bu geopark Şahbuz, Culfa, Ordubad, Babək rayonunun böyük bir hissəsini əhatə etməklə, təqribən, 100-ə yaxın arxeoloji, tarix və mədəniyyət abidələrini özündə cəmləşdirir. Və bu artıq hazır bir layihədir və onun təsdiq edilməsi ilə bağlı müəyyən işlər aparılsa daha yaxşı olardı. Bu, Naxçıvan təbiətinin mühafizə edilməsinə, eyni zamanda bölgədəki tarix və mədəniyyət abidələrinin bərpa olunmasına gətirib çıxara bilər. Bizim dünyaca məşhur Gəmiqaya abidəmiz vardır ki, dövlət parkı şəklində təşkil olunub, Zəngəzur Milli Parkına daxildir, ora mühafizə edilməlidir. Heyvandarlıqla məşğul olan insanlar oraya heyvanlarını aparır, oranı zibilləyir, ən pisi isə qədim təsvirlərin yanına əlavə olaraq rəsmlər çəkirlər. Bununla da tarixi abidələrimizi məhv edirlər. Baxmayaraq ki, Gəmiqaya milli park ərazisidir, ora heyvan ötürmək olmaz, amma yenə də mühafizə edilmir. Bunların qarşısı müvafiq icra hakimiyyəti orqanları tərəfindən alınmalı, Gəmiqaya, Göygöl, Batabat ərazilərində yaşayan, heyvandarlıqla məşğul olan insanlara abidələrlə bağlı məlumat verilməlidir ki, onların dağıntılara uğramasının qarşısı alınsın.

***– Tarix-mədəniyyət abidələri həm də turizmin inkişafında mühüm rol oynayır. Bu mənada, turizm cəlbediciliyini artırmaq üçün nə etməliyik?***

– Tarix və mədəniyyət abidələrini turizm baxımından əlverişli vəziyyətə salmaq üçün, hər şeydən əvvəl, infrastrukturlar lazımdır. İlk növbədə, müəyyən turist marşrutları olmalıdır. Bu marşrutlar üzərində bəzi abidələrimiz var, amma bəziləri yoxdur. Buna görə də infrastrukturların bərpa edilməsi, dediyim kimi, həmin abidələrin, eyni zamanda mühafizə olunması lazımdır. Elə abidələr var ki, baxımsızlıqdan ətrafını kol-kos basıb. Onlar daim təmizlənməli, səliqəli saxlanmalıdır və buraya yol olmalıdır ki, turistləri oraya aparmaq və abidə haqqında məlumat vermək mümkün olsun. Biz abidələri qeydə alarkən belə nəzərdə tutmuşduq ki, onların hamısının yaxınlığında lövhələr qoyulsun, amma bu lövhələr abidələrin əksəriyyətində yoxdur.

Turizmin inkişafı Naxçıvan Muxtar Respublikasının büdcəsinə əlavə gəlirlər gətirə bilər. Qardaş Türkiyə Respublikasında turizmə çox böyük önəm verilir və onun büdcəsinin böyük bir qismi turizmdən qaynaqlanır. Burada da bu işi həyata keçirmək mümkündür. Düzdür, Naxçıvan hələ də blokada vəziyyətindədir. Zəngəzur dəhlizinin açılmasından sonra elə bilirəm ki, vəziyyət biz istədiyimiz istiqamətdə olacaq. Bu dəhliz açılana qədər də müəyyən işləri görmək lazımdır. İndi də turistlər gəlir və turist marşrutlarını genişləndirmək üçün mütləq bu işləri görmək lazımdır. Eyni zamanda abidələrin tədqiqinə beynəlxalq ekspedisiyaları, beynəlxalq qurumları cəlb etməyə önəm verilməlidir. Həmçinin tarixi-memarlıq, arxeoloji abidələrlə bağlı internet saytlarının sayının çoxaldılmasına, beynəlxalq məcmuələrdə məqalələrin çap olunmasına ehtiyac var. Çünki bədxah qonşularımızın bizə əsassız ərazi iddialarının əsasında tarixi abidələr də müəyyən yer tutur. Naxçıvan ərazisində olan abidələri, qədim mədəniyyətləri özlərinə çıxmağa çalışırlar. Bu sahədə AMEA Naxçıvan Bölməsində xeyli işlər görülüb, amma yenə də bunu bitmiş hesab etmək olmaz, bu iş davam etdirilməlidir.

***– Vəli müəllim, müsahibəyə vaxt ayırdığınız üçün çox sağ olun!***

– Sağ olun!

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin saytı AzStateNet şəbəkəsinə köçürülüb



Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi, o cümlədən qurumların köhnə versiyalı informasiya resurslarının müasir dizaynda yenidən hazırlanaraq təhlükəsizlik tələblərinə uyğunlaşdırıldıqdan sonra “GOV.AZ” domen zonasına köçürülməsi istiqamətində tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin veb-saytı *“nmaliyye.gov.az”* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb. Təhlükəsizlik və istifadəçi rahatlığını nəzərə alaraq sayt müasir proqramlaşdırma dillərindən istifadə edilərək yenidən hazırlanıb.

Həmçinin saytın optimizasiyası, axtarış sistemlərinə uyğunlaşdırılması, təhlükəsizliyinin təmin olunması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün də nazirliyin mütəxəssisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib.

Nazirliyin yeni internet səhifəsinin domen ünvanı da müvafiq qaydada yenilənməklə *gov.az* domeninə bağlı e-poçt adresləri ilə təmin ediləcəkdir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən muxtar respublikada dövlət orqanlarının internet səhifələrinin “GOV.AZ” zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Ədliyyə orqanlarında işə qəbulla bağlı müsahibə keçirilib

Ədliyyə Nazirliyinin kadr korpusunun yeni nəsil gənc mütəxəssislərlə möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür, aşkarlıq şəraitində açıq müsabiqələr keçirilir. Bu tədbirlərin davamı olaraq nazirliyin yerli icra və probasiya qurumlarında vakant icra məmuru vəzifələrinin tutulması üçün 4 mart 2023-cü il tarixdə müsabiqə elan edilmiş, vakansiyaya sənəd qəbulu 1 iyun 2023-cü il tarixdə başa çatmışdır. İyun ayının 9-da müsabiqənin test mərhələsi keçirilmiş, 4 namizəd keçid balını toplayaraq növbəti mərhələdə iştirak etmək hüququ qazanmışdır.



Nazirlikdə müsabiqənin test mərhələsində uğur qazanmış namizədlərin, eləcə də nazirliyin Məhkəmə Ekspertizası Mərkəzində vakant ekspert vəzifəsi üzrə 1 namizədin iştirakı ilə müsahibə mərhələsi keçirilmişdir. Müsahibə zamanı namizədlərə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, peşə hazırlığına və dünyagörüşünə uyğun suallar verilmişdir.

Müsahibə mərhələsində uğur qazanmış namizədlər “Ədliyyə orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq Ədliyyə Akademiyasının təşkil etdiyi icbari təlimə cəlb olunacaqlar.

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları “Açıq qapı” günləri çərçivəsində növbəti qəbulu Ordubad rayonunda təşkil ediblər.*

## Növbəti *“Açıq qapı”* günü olub

Görüş zamanı qəbula gələn vətəndaşların müraciətləri dinlənilib. Müraciətlər əsasən ədliyyə orqanlarının fəaliyyət istiqamətləri üzrə icra və notariat fəaliyyəti ilə bağlı olub, qanunvericiliyə uyğun rəsmiləşdirilib. Vətəndaşlara qanunvericilik çərçivəsində hüquqi yardım göstərilib, yerində həll edilməsi mümkün olan problemlər aradan qaldırılıb, araşdırma tələb edən müraciətlər qeydə alınaraq nəzarətə götürülüb.



Qeyd edək ki, “Açıq qapı” günlərinin muxtar respublikanın şəhər və rayonlarında keçirilməsi davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***




# Naxçıvanın hidroloji abidələri ekoturizmin inkişafına mühüm töhfə verə bilər

*Ölkəmizdə turizmin inkişafı hər keçən gün daha da aktuallaşır. Son illərdə bu həllivacib sahənin inkişafı üçün həyata keçirilən tədbirlərin yaxın gələcəkdə Naxçıvanın da bir turizm diyarı kimi tanınmasında mühüm rol oynayacağı qənaətini qətiləşdirir. Nəzərə alaq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda muxtar respublikada turizmin inkişafı prioritet istiqamət olaraq qəbul edilmişdir. Proqramda turizm və rekreasiya zonalarının yaradılması, sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi qarşıya məqsəd qoyulmuşdur.*

Naxçıvan Muxtar Respublikasının zəngin turizm potensialına malik olduğunu hər birimiz bilirik. Lakin turizm çoxşaxəli bir sahə olduğuna görə regionda mövcud turizm növlərinin hər biri haqqında ayrıca düşünməyə dəyər. Aydındır ki, Naxçıvanın turizm ehtiyatlarından bəhs edərkən ilk ağıla gələn bu regionun təbiəti və tarixi abidələridir. Buradakı tarixi abidələrin hər biri turizm üçün potensial mənbə sayılmaqla yanaşı, qədim diyarın təbiəti də özünəməxsusluğu ilə seçilir. Nəzərə alaq ki, zəngin ekoloji sistemə malik Naxçıvanda ekoturizmin onlarla növü var ki, onlardan hər biri turizm üçün maraqlı obyekt rolunda çıxış edə bilər. Belə obyektlərdən biri də muxtar respublikamızda mövcud olan hidroloji abidələrdir.





Hidroloji abidələr ekoturizmdə, əsasən, təbiət abidələri sisteminə daxil olan abidələrdir. Lakin müasir dövrdə dünyada turizmin inkişafı yönündə atılan addımlar elə bir səviyyəyə çatıb ki, “təbii yoxdursa, oxşarını yarat” məntiqi ekoturizmi də öz ağuşuna alıb. Məsələn, hazırda bir çox ölkələrdə ada turizmində süni adalardan istifadə daha çoxluq təşkil edir və yaxud isti ölkələrdə turistlərə “qış fəsli kompleksləri” yaratmaq yeni ideya deyil. Yəni demək istədiyimiz odur ki, turistlər üçün mövcud şəraitin yaradılması heç də həmişə təbiilik tələb etmir. Əsas odur ki, turist onun istifadəsinə verilmiş şəraitdən yararlana bilir və ondan razıdır. Bu nöqteyi-nəzərdən muxtar respublikada mövcud olan təbii su ehtiyatlarının əksəriyyətinin turizm sektoruna hidroloji abidə kimi təqdim olunmasını daha düzgün hesab etmək mümkündür. Ölkəmizin digər bölgələri ilə müqayisədə Naxçıvanın su ehtiyatları az olsa da, bu ehtiyatların maraqlı coğrafi məkanlarda yerləşməsi onların gözəlliyini daha da artırır. Bunlardan bir neçəsinə nəzər salaq.

Şərur rayonu ərazisində yerləşən ***Arpaçay Su Anbarı*** Azərbaycanda iri irriqasiya qurğularından sayılır. Bu su anbarı 1977-ci ildə istifadəyə verilib. Su anbarının sahəsi 6,30 kvadratkilometrdir. Araz çayının sol qolu hesab edilən çayın üstündə 68 metr hündürlükdə tikilmiş bənd anbara 150 milyon kubmetr suyun yığılmasına imkan verir. Bu su ehtiyatından Sədərək, Şərur və Kəngərli rayonunun ərazilərində yerləşən əkin sahələrinin suvarılmasında istifadə olunur. Bu hidroloji abidə yerləşdiyi mövqeyə görə (su anbarının qərb hissəsi dağ yamacları ilə sərhəddir, əks tərəfdən isə Arpaçay boyunca yerləşən kəndlərə avtomobil yolu uzanır) çox cəlbedici mənzərəyə sahibdir və burada müxtəlif turizm növlərinin inkişafı üçün əla imkanlar var. Ən əsası isə su anbarının qərb hissəsi boyunca uzanan yüksək dağ yamacları günün müəyyən hissəsindən sonra Günəş şüalarının qarşısını kəsərək qızmar yay günlərində ətrafa təbii sərinlik bəxş edir.

***Batabat Su Anbarı*** isə Şahbuz rayonunun ərazisində, Naxçıvançayın hövzəsində yerləşir. Bu hidroloji abidə eyniadlı 3 su hövzəsindən ibarətdir. Ümumi su tutumu, təqribən, 3 milyon kubmetrdir. Məşhur “Üzən ada” da burada yerləşir. “Üzən ada” sfaqnum mamırlarından və onun üzərində bitən örtüklərdən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir. Göldə yaşayan qiymətli qızıl və gümüşü ilişkən balıq növü bu ərazidə balıq ovu idmanına şərait yaradır. Eyni zamanda ada göldəki suyun tam axıdılmasına mane olduğundan balıqlar burada qışda da qala bilirlər. Torfun altındakı münbit şərait hesabına çoxalan külli miqdarda onurğasızlar balıqların bol qidasını təmin edir.

Muxtar respublikada əhəmiyyətli su ehtiyatına malik hidroloji qurğulardan biri də ***Heydər Əliyev Su Anbarı***dır. Babək rayonunun Vayxır kəndi yaxınlığında, Şahbuz rayonu ərazisində yerləşən su anbarı dəniz səviyyəsindən 1059 metr hündürlükdə yerləşir. Ümumi həcmi 100 milyon kubmetrə malik su anbarı 2005-ci ildə istifadəyə verildikdən sonra Şahbuz, Culfa, Babək rayonlarının suvarma suyuna olan tələbatı xeyli yaxşılaşdırılıb, ümumilikdə, anbar vasitəsilə bu gün 17 min hektara yaxın əkin sahəsi suvarılır. Son illərdə burada müxtəlif balıq növlərinin çoxaldılmasına diqqət artırılıb.

Babək rayonu ərazisində yerləşən ***Uzunoba Su Anbarı*** isə son dövrlərdə burada aparılan quruculuq tədbirləri çərçivəsində daha böyük imkanlar əldə edib. Belə ki, bu ərazidə əhalinin istirahəti üçün çimərlik kompleksi yaradılıb, mağaza, kafe, yeməkxana fəaliyyət göstərir. Muxtar respublikada balıq ehtiyatlarının zənginləşdirilməsinə öz töhfəsini verən bu su anbarının ətrafında əhalinin istirahəti üçün yeni infrastrukturun yaradılması bu hidroqurğunun imkanlarını daha da artırıb.

Qədim diyarın hidroloji abidələrinə Ordubad rayonu ərazisində də rast gəlmək mümkündür. Belə ki, Zəngəzur dağ silsiləsinin cənub yamacında, dəniz səviyyəsindən 3065 metr yüksəklikdə yerləşən ***Göygöl*** həm qədimliyinə, həm də yerləşdiyi coğrafi əraziyə görə digərlərindən fərqlənir. “Kitabi Dədə-Qorqud”da adıçəkilən Göygölün, deyilənlərə görə, əvvəllər həcmi böyük olub, ancaq zaman keçdikcə onu əhatə edən dağların aşınması nəticəsində gölün sahəsi kiçilib. Naxçıvan Muxtar Respublikasının ən hündür dağ gölü sayılan Göygölün uzunluğu, təxminən, 211, eni 103, dərinliyi isə 7 metrdir. Su tutumu 145 kubmetrdir. Buzlaq mənşəli olan bu gölü bəzən “dörd fəsil” gölü də adlandırırlar. Çünki yay aylarında, xüsusən də avqust ayında gölün bir tərəfində qar olanda digər tərəfində çiçək açır, digər tərəfdə isə çiçəklərin ləçəkləri tökülür. Yaradanın Naxçıvana bəxş etdiyi bu gözəl təbiət nümunəsi dağ və piyada turizminin inkişafında əvəzolunmaz imkanlara malikdir.

Ordubad torpağında digər əsrarəngiz hidroloji abidə ***Pəzməri*** kəndi yaxınlığında yerləşən eyniadlı şəlalədir. Şəlalə Zəngəzur silsiləsinin Ordubad rayonu ərazisində yerləşən Ayıçınqılı aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı Pəzməri çayının üzərində yerləşən təbiət abidəsidir. Yuxarı axarlarda kanyonvarı dar, kaskadlı dərələrdən keçən, əsasən, bulaq və qar suları ilə qidalanan və Pəzməri çayının oulu olan Ayıçınqılı çayının Vənəndçaya töküldüyü yerin yaxınlığında, dəniz səviyyəsindən 2161 metr hündürlükdə gur şəlalə yaradır. Pəzməri şəlaləsi su sərfi, axının sürəti, enerji ehtiyatı ilə fərqlənir. Karbonatlı süxurlar üzərində şəlalənin nisbi hündürlüyü, təxminən, 30 metrdir. Pəzməri kəndindən 4-5 kilometr aralıda yerləşən bu ecazkar təbiət abidəsini görmək üçün Naxçıvanın bütün bölgələrindən hər il buraya xeyli insan gəlir. Pəzməri şəlaləsi zəngin enerji ehtiyatına malikdir. Şəlalənin ortaillik su sərfi 1,34 kubmetr saniyədir. Yayın əvvəllərində su sərfi 25 kubmetr saniyəni ötür. Onu da qeyd edək ki, Pəzməri çayının üzərindəki eyniadlı böyük şəlalədən başqa bir neçə xırda şəlalə də mövcuddur. Bu şəlalələr ərazidə olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də burada turizm potensialının olmasından xəbər verir.

*Ümumiyyətlə, muxtar respublikada ekoturizmin inkişafına imkan verən xeyli sayda hidroloji abidələr vardır. Hələ biz bura regionda mövcud olan mineral su yataqlarını, tarixi abidələrimiz sayılan kəhrizləri aid etmirik. Bu sadaladıqlarımızın hər biri turizmin inkişafında bu və ya digər istiqamətlər üzrə mühüm rol oynayacaq obyektlərdir. İnanırıq ki, yuxarıda adıçəkilən Dövlət Proqramının uğurlu icrası yaxın gələcəkdə bu hidroloji abidələrin də turizmə faydasını ön plana çıxaracaq.*

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Dəyərli tədqiqat əsəri cəmiyyətimizdə mənəvi tərbiyənin aşılanmasına böyük töhfə verir




*Ölkəmizin müasir təhsil ənənəsində mənəvi tərbiyənin araşdırılması, tədqiqi və öyrənilməsi böyük yer tutur. Bu sahədə uzun illər ziyalılarımız dəyərli əsərlər, müxtəlif sahələri əhatə edən didaktiv materiallar, məqalələr və bir sıra ədəbi məcmuələr çap ediblər. Bu əsərlərin hər biri ölkəmizdə nümunəvi və dərin biliklərə malik pedaqoji elmin əsasını qoyub. Bu mənada, Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyinə töhfə kimi ərsəyə gətirilmiş “Yuxarı sinif şagirdlərinin mənəvi tərbiyəsinin aktual məsələləri” adlı monoqrafiya Naxçıvan Müəllimlər İnstitutunun Təbiət və incəsənət fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru Rövşən Vəliyevin gərgin axtarışlarının bəhrəsi kimi diqqəti çəkir. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çap edilən monoqrafiya iki böyük fəsildən ibarətdir və fəsillərin hər birində yuxarı sinif şagirdlərində yüksək mənəvi tərbiyənin aşılanmasından bəhs edilir. Müəllif hər iki bölmədə uzun elmi-tədqiqat işinin nəticəsi olaraq sanballı arqumentlər gətirir, axıcı və səlis dillə oxucunu maarifləndirir, mənəvi tərbiyənin əsas predmetindən və metodologiyasından danışır.*

Kitabın “Yuxarı sinif şagirdlərinin mənəvi tərbiyəsi işi ümumtəhsil məktəblərinin əsas vəzifələrindən biri kimi...” başlıqlı birinci bölməsində müəllif ilk olaraq “mənəvi tərbiyə” anlayışının mahiyyəti və məzmunu haqqında danışır, mövzunun problemlərinə elmi dəlillərlə və istinadlarla aydınlıq gətirir. Müəllif yazır ki, bu gün şəxsiyyətin inkişafının mənəvi əsasları problemi ölkə pedaqogika elminin yeni humanist ideyaları ilə bağlı bir məsələdir. Mənəviyyatın təzahürü bütöv insan həyatını əhatə etdiyindən problemin həlli istər Şərqdə, istərsə də Qərbdə insanın bioloji təbiətinə uyğun olaraq müxtəlif şəkildə öyrənilmişdir. Müəllif birinci bölmənin ilk hissəsində mənəvi tərbiyə ilə bağlı fikirlərini belə ifadə edir: – Mənəvi inkişaf problemi tarixən insan haqqında elmi və dini biliklər formasında yaranmışdır. Ona görə də xalqımızın müstəqillik qazandığı hazırkı şəraitdə gəncliyin mənəvi keyfiyyətlər, nəcib sifətlər ruhunda formalaşmasının qayğısına qalmaq bu günün başlıca tələbidir. Bu cəhəti nəzərə alaraq “mənəvi tərbiyə” anlayışının ifadə etdiyi məna və məzmunun aydınlaşdırılması, pedaqoji ədəbiyyatda bu məfhuma münasibətin öyrənilib ümumiləşdirilməsi və dəqiqləşdirilməsi xüsusi zərurət yaradır.

Böyük irfan ustadı, qədim yunan alimi və filosofu Aristotel bir zamanlar yazırdı ki, əxlaqi tərbiyəni, əxlaqi-iradi sferanı inkişaf etdirən, şüur və davranış vəhdətinin formalaşmasına kömək edən ən ali vasitə kitabdır, kitabın köməyi ilə istənilən əxlaq normaları aşılana bilər. İstənilən obyekt əxlaqi tərbiyə vasitəsi kimi xidmət edə bilər, hər şey yalnız tərbiyəçinin səyindən asılıdır. Bəli, bu gün cəmiyyətimizdə fəaliyyət göstərən pedaqoqlarımız istər ali təhsil müəssisələrimizdə, istərsə də məktəb və digər təlim-tədris ocaqlarımızda mənəvi tərbiyənin ən yüksək səviyyədə öyrədilməsi, bu sahədə ziyalı kadr kollektivinin formalaşdırılması üçün əlindən gələni edir. Kitabda müəllif məktəblərimizin dərs proseslərindəki mövcud vəziyyətlərdən söhbət açır, şagirdlərə nümunəvi mədəniyyətin aşılanması yolundan danışır. Belə qənaətə gəlir ki, dərsdə ideya-mənəvi tərbiyənin səmərəli olması üçün müəllim öz parlaq, emosional şərhi ilə şagirdlərdə ictimai-siyasi fakt və hadisələrə şəxsi münasibət formalaşdırmağa çalışmalıdır. Şagirdləri ayrı-ayrı siyasi hadisələrə, bədii əsərlərdəki qəhrəmanların fikir və davranışına qiymət verməyə, onlara öz münasibətlərini bildirməyə, müstəqil nəticələr çıxarmağa cəlb etmək bu baxımdan əhəmiyyətlidir.

Rövşən Vəliyevin kitabda qeyd etdiyi uzun və təhlili axtarışlarının nəticəsi yalnız məktəblilərdə mədəni və əxlaqi dəyərlərin aşılanmasından qaynaqlanmır. Müəllif bununla yanaşı, məktəblərdə şagirdlərə müxtəlif fənlərin öyrədilməsi, müəllim-şagird, şagird-valideyn əlaqələrinin səmərəli şəkildə qurulması, o cümlədən fənlərin ayrı-ayrılıqda şagirdlər tərəfindən mənimsənilməsi məsələlərinə də aydınlıq gətirir. O qeyd edir ki, məktəblərdə bəzi fənlər şagirdlər tərəfindən digər elmlərə nisbətən daha az öyrənilir. Müəllif yazır: “Apardığımız təhlil və müşahidələrimiz, ümumtəhsil məktəbində riyaziyyat fənninin tədrisi üzrə topladığımız uzunmüddətli təcrübələrimiz sübut edir ki, şagirdlər fənnin öyrənilməsi prosesində bir sıra çətinliklərlə qarşılaşırlar. Bütün bunları aradan qaldırmaqla yanaşı, proqram materialının öyrədilməsi zamanı bu və ya digər anlayışı izah edərkən şagirdləri riyaziyyatın ayrı-ayrı yeni sahələri ilə tanış etməli, dünya və Azərbaycan riyaziyyat məktəblərinin nailiyyətləri və bu məktəblərin görkəmli şəxsiyyətləri haqqında məlumat verməyi bacarmaq lazımdır ki, bunun da şagirdlərin üzərində tərbiyəvi təsiri danılmazdır”.

Kitabın “Təlim prosesi və sinifdənxaric işlər zamanı yuxarı sinif şagirdlərinin mənəvi tərbiyəsinin formalaşdırılmasının imkan və yolları” adlı ikinci bölməsində müəllif müxtəlif praktiki işdə pedaqogika elminin predmetindən, o cümlədən riyaziyyat fənni üzrə pedaqoji texnologiyaların tədrisi və təlimindən, psixologiyanın nailiyyətlərindən düzgün faydalanmağı diqqətə çatdırır.

İkinci bölmədə ayrı-ayrı fənlərin şagirdlər tərəfindən düzgün formada öyrənilməsi, o cümlədən bu sahədə fəaliyyət göstərən müəllimlərin auditoriyalarda əsaslı şəkildə dərs prosesini çatdırması əsas tezis kimi göstərilir. Fikrimizi daha dəqiq və ətraflı ifadə etsək, Rövşən Vəliyev tərəfindən oxucuya çatdırılası əsas vəzifə bundan ibarətdir ki, müasir məktəbli geniş elmi-mədəni dünyagörüşünə sahib olmalı, bəşəri və milli-mənəvi dəyərləri mənimsəməli, hər yerdə yüksək mədəni davranış nümayiş etdirməlidir. Məktəblərdə təhsil alan hər bir şagird, nümunəvi Azərbaycan gənci formalaşdıran hər bir müəllim Vətənini, xalqını, insanları dərin məhəbbətlə sevməli, xalqın mənəvi dəyərlərinə, o cümlədən dilinə, dininə, bayrağına, himninə, gerbinə, adət və ənənələrinə hörmət etməli və onlara sadiq olmalıdır. Bununla yanaşı, müəllif kitabın adıçəkilən bölməsində uzun illər bu sahədə qazandığı şəxsi təcrübəsindən çıxardığı bir faktı diqqətə çatdıraraq yazır: “Təcrübə göstərir ki, riyaziyyat dərslikləri üzrə müstəqil işlərin təşkili şagirdlərin mənəvi-iradi keyfiyyətlərinin tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Bunun üçün şagirdlərdə güclü motivlər yaratmaq lazımdır. Məsələn, dərsdə şagirdlərin öyrənəcəyi, tanış olacağı mövzudan əvvəl, onlara kitabdan öyrənəcəyi yeni biliklərin müstəqil əldə etmək bacarıqlarının insanın həyatında necə bir əhəmiyyət daşıdığını aydınlaşdırmaq lazımdır”.

Sonda müəllifin gəldiyi qənaət budur ki, ölkənin gələcəyinin etibarlı əllərdə olması bu gün yetişən nəslin, övladlarımızın mənəvi simasının yenilşməsindən, təlim-tədrisin düzgün öyrənilməsindən, onların həyat mövqelərinin düzgün müəyyənləşdirilməsindən çox asılıdır.

**Məcid RƏŞADƏTOĞLU**

# Ömrün yüzüncü ili

*Ulu Öndərimizin 100 illik yubileyinin qeyd edildiyi bu ildə qeyrət qalası Sədərəkdə bölgənin yaşlı sakinləri ilə söhbət zamanı öyrəndim ki, rayonun Dəmirçi kəndində bu il yüz yaşı tamam olan **Münəvvər Kərimova** adında bir ağbirçək yaşayır. Onunla görüşmək qərarına gəldim. Budur, nənənin evinin aynabəndində çay süfrəsi arxasında onun xatirələrini dinləyirik. Nənə 9 uşaq anasıdır. Üç oğul, altı qız payı verib Tanrı ona. Nəvə, nəticə, kötücə sahibidir. Həyat yoldaşı illər öncə vəfat edib. Onun atası İkinci Dünya müharibəsində itkin düşüb. Nəticəsi ilə arasında birəsrlik fərq olan nənənin söhbəti:*



– Ömrümün çox çətin və əziyyətli günləri olub. İkinci Dünya müharibəsinin əzablı günlərində gənc olsam da, çətinlikləri dərindən hiss edirdim. Kənddə nə qədər başıpapaqlı var idi, hamısı müharibəyə getmişdi. Kişi işini də, qadın işini də özümüz görürdük. Bir ovuc taxıl tapanda onu cəbhəyə göndərir, özümüz isə arpa, qarğıdalı unundan hazırladığımız çörəklə qidalanırdıq. O da olsa. Arxa cəbhədə biz, ön cəbhədə ərlərimiz, atalarımız, qardaşlarımız döyüşdü. İkinci Dünya müharibəsi bitsə də, bizim çətinliklərimiz bitmədi. Qalib olan dövlətin gözdən, könüldən iraq qalan bir yerinin sakinləri kimi yaşadıq. Övladlarımı boya-başa çatdırmaq üçün kolxozda tütündə, pambıqda işləməli oldum, öz zəhmətimlə uşaqlarımı böyütdüm.

İşləməkdən belimiz bükülsə də, zəhmətimizin qarşılığını ala bilmirdik. Dinimizdən, dilimizdən, adət-ənənələrimizdən uzaq düşmüşdük. Məscidlərimiz anbarlara, tarixi abidələrimiz zibilliyə çevrilirdi. Qorxa-qorxa tonqal qaladıq bayramda, çəkinə-çəkinə oruc tutduq. Çətin günlərin sonunun gəldiyi günləri də gördük, şükür Allaha. Sovetlər Birliyinin təməl dirəkləri məhz Naxçıvanda söküldü. Azadlıq deyilən bir şərbəti doya-doya içməyə macal tapmamış mənfur qonşumuz yurdumuza hücum çəksə də, el bir olub düşməni bir addım belə yaxına buraxmadı. Gündüzlər top mərmisi altında çörək bişirib, gecələr yun corab toxuyub cəbhəyə göndərdik. Ulu Öndər Heydər Əliyevin gəlişi bizi düşmən hücumlarından, aclıqdan qorudu. Hamımız yaxşı dərk edirdik ki, Onun gəlişi hər şeyi öz yoluna qoyacaq. Şükür olsun Allaha ki yurdumuz Onun sayəsində azad günlərə qovuşdu. Uşaqlarım yaxşı məktəbdə oxuya bilməsə də, nəvə-nəticələrim gözəl məktəbdə oxuya bildilər. Onların gələcəyindən nigaran deyiləm. Bilirəm ki, xalqımızın gözəl rəhbəri var. O, Vətənimizi işıqlı gələcəyə aparır.

Bu ağbirçək qadınla həmsöhbət olarkən istər-istəməz insanı bir sual düşündürür: "Görəsən, yüz il yaşamağın hər hansı bir sirri varmı?" Sanki bu sualın bizi düşündürdüyünü hiss edib deyir ki, ən əsası təmiz hava, təmiz sudur. İkincisi, düzgün qidalanmaq. Bir də ki, zəhmət. "Əmək insanı ucaldar", – deyib atalarımız. Hər səhər gün çıxmamış oyanıb, gün batandan sonra yatmaq insanın ömrünü uzadar. İnsanın qəbul etdiyi qidanın, içdiyi suyun, yaşadığı mühitin uzunömürlülüyə böyük təsiri var. Biz kənd adamları, əsasən, təbii qidalara, özümüzün əkdiyimiz məhsullara üstünlük veririk. Əsas isə səmimi, mehriban ailəyə sahib olmaqdır. Övladlarım, nəvələrim mənim qulluğumda yorulmadan dayanır. Onlar bir-birini çox sevir, bu da mənə yaşamaq həvəsi verir. Gözüm görmür, amma qızım mənim gözlərimə nur olur. Ayaqlarımda ağrılar olanda oğlum mənə dayaq olur. Artıq oğullarım, qızlarım nənə, babadır və onların xoşbəxtliyini görəndə çox sevinirəm. Məni ən çox xoşbəxt edən isə nəvələrimizin, böyütdüyümüz oğulların öz ana, bacılarının qisasını almasıdır. Bizim də kəndin oğulları həmin igidlərin içərisində yer alıb. Rüfətin, Məmmədhəsənin şəhadəti anaları kimi, mənim də ürəyimi yandırdı.

Nənə hər sözün başında mütləq Ulu Öndərin adını çəkir, fəxrlə Onunla həmyaşıdam deyirdi. Dahi rəhbərin davamçısına dualar edirdi. Deyirdi ki, nəvələrinin köməkliyi ilə ölkə başçısına Ümummilli Liderin yüz illik yubileyi münasibəti ilə məktub da ünvanlayıb.

*Cəmi bir saat ömrü bir əsrə bərabər bir xanımla həmsöhbət oldum və bu bir saatda yüz ilə sığınan ömrün müxtəlif dövrlərinə səyahət etdim onunla bərabər. Şahid oldum ki, bir insanın ürəyindəki yaşamaq həvəsini yaradan səmimi və gözəl ailədir.*

**Ramiyyə ƏKBƏROVA**

# Şagirdlər yeni tədris ilində əvvəlki məktəbli geyim formasından istifadə edə biləcəklər

*Valideynləri maraqlandıran əsas məsələlərdən biri də 2023-2024-cü tədris ilində övladlarının hansı məktəbli forması ilə təhsil ocaqlarına gedəcəyidir.*

Məlumat üçün bildirək ki, uzun illərdir ki, muxtar respublikanın ümumtəhsil məktəblərində vahid geyim formasından istifadə olunur. 2023-2024-cü tədris ilində də muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri əvvəlki geyim formasından istifadə edə biləcəklər.

Naxçıvan Muxtar Respublikası Təhsil, İqtisadiyyat nazirlikləri və şəhər, rayon icra hakimiyyətləri ilə birgə keçirilən ənənəvi məktəbli yarmarkaları bu il də davam etdiriləcək. Yarmarkalarda digər məktəbli ləvazimatları ilə yanaşı, məktəbli formalarının satışı da həyata keçiriləcək. Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli "Dövlət ümumi təhsil müəssisələrində təhsilalanların geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında Qərarına əsasən ölkənin ümumtəhsil məktəblərində 4 cür geyim formasından istifadə olunacaq. Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji şurasının qərarına uyğun olaraq valideynlər övladları üçün ölkə üzrə istifadə olunan məktəbli geyimlərindən də ala bilərlər. Bu məcburi deyil və valideynlərin öz arzusu ilə ola bilər. Cari il üçün hər iki geyim formasından istifadəyə ümumtəhsil məktəblərində icazə veriləcək. 2024-2025-ci tədris ilindən isə ölkə üzrə tətbiq olunan geyim formalarından istifadə məcburi olacaqdır.

# Naxçıvan Futbol Federasiyasının iclası keçirilib



Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan Futbol Federasiyasının iclası keçirilib.

İclasda çıxış edən Naxçıvan Futbol Federasiyasının sədri Qəzənfər Abdullayev bildirib ki, idmanın müxtəlif növlərində olduğu kimi, futbol sahəsində də vətəndaşlarımızın peşə sahibi olub uğurlu gələcək qurmaları, bu sahədə mütəxəssisləşməsi və ən əsası fiziki, zehni cəhətdən sağlamlıqlarının qorunması məsələsinə muxtar respublikamızda xüsusi diqqət və qayğı ilə yanaşılır. İdman sahəsinə göstərilən diqqət və qayğı idmançıların həyat tərzinə əhəmiyyətli dərəcədə təsir edir. Bu mənada, maddi-texniki bazanın ildən-ilə daha da genişləndirilməsi, ixtisaslı kadrların formalaşdırılması, kütləvilik, karyera imkanlarının artırılması və mövcud perspektivlərə əsaslanan addımlar günümüz üçün sevindirici, gələcək üçün ümidverici faktora çevrilib.

Federasiya sədri qeyd edib ki, muxtar respublikada maddi-texniki bazanın gücləndirilməsi, müasir idman infrastrukturunun, eyni zamanda stadionların yenidən qurulması işinin davam etdirilməsi və mövcud stadionlardan səmərəli istifadənin inkişaf etdirilməsi federasiyamızın əsas iş prinsiplərindən biri olacaq.

Sonra gündəlikdə duran digər məsələlər müzakirə edilib. Federasiyanın İdarə Heyətinin və Nəzarət-Təftiş Komissiyasının üzvləri təsdiqlənib. Belə ki, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Taleh İbrahimov, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Aparat rəhbəri Vüsal Məmmədov, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nümayəndəsi Elxan Babayev, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin müavini Anar İbrahimov, Həmkarlar İttifaqları Şurasının nümayəndəsi Rövnəq Xəlilov və Naxçıvan Futbol Federasiyanın nümayəndəsi Sakit Rzayev Naxçıvan Futbol Federasiyası İdarə Heyətinin, Həmkarlar İttifaqları Şurasının nümayəndələri Türkal İbrahimov, İmran Kələşov və Ceyhun Məmmədov isə Nəzarət-Təftiş Komissiyasının üzvləri seçiliblər.

**Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi yer təkindən istifadə ilə bağlı 19 sentyabr 2023-cü il tarixdə saat 11[00]-da keçiriləcək hərracın elanı

Hərrac auksion formasında keçiriləcəkdir.

### Lizbirt mergel yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti | Beh məbləği (10 faiz) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Lizbirt | LOT-1 | 2000000m³ | 10 ha | Mergel | 25 ilədək | X528862.4839<br>Y4368846.5991<br>X528658.9483<br>Y4368820.8686<br>X528581.9695<br>Y4369033.1435<br>X528573.0047<br>Y4369280.5226<br>X528747.9968<br>Y4369305.2506 | 200000 | 20000 |

### Culfa rayonu Qaradaş teşenit yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti | Beh məbləği (10 faiz) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Qaradaş | LOT-1 | 1230250m³ | 7,5 ha | Teşenit | 25 ilədək | X4332105.91<br>Y5550293.75<br>X4332214.60<br>Y550267.05<br>X4332186.93<br>Y549820.68<br>X4332130.55<br>Y549820.56 | 123025 | 12302,5 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Nəsirəddin Tusi küçəsi 19 (Naxçıvan Biznes Mərkəzi MMC)

***Qeyd:*** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10 faiz miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42) .

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əslini;
3. "Vergiödəyicisinin vergi borcu barədə" arayış;
4. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
5. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi;
6. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
7. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 5 sentyabr 2023-cü il, saat 16[00]-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər 540 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 (Əlaqələndirici şəxs: Əliyev Şövqi, telefon: (036) 545-34-85, 050-569-84-69 ) ünvanından ala bilərlər.

**Hesab: AZ21NABZ12360100000000005944**

**VÖEN 0200003621**

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi**

**Büdcə təsnifat kodu: 142572**

**Büdcə səviyyəsinin kodu: 6**

Xidmət haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir. Beh məbləği ödənilmədiyi təqdirdə, iddiaçı hərraca buraxılmır.

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə
Fiziki şəxs / Hüquqi şəxs tərəfindən____

VÖEN:

Ünvan:

Ərizə

Xahiş edirik hərracda iştirak etmək üçün icazə verəsiniz.

İmza: Nümunə Həsənov Həsən

Tarix: 15 iyul 2023-cü il

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Psixoloji yardım haqqında qanunvericiliyin pozulması hansı hallarda inzibati məsuliyyət yaradır və həmin xətalara görə hansı inzibati tənbeh növləri tətbiq edilir?***

***Cavab:*** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən psixoloji yardım almağa məcbur etməyə görə inzibati xətanı törətmiş şəxslər beş yüz manat məbləğində cərimə edilirlər.

Klinik psixoloji yardım göstərilməsi zamanı klinik (tibbi) psixoloq tərəfindən dərman preparatlarının təyin, o cümlədən insan orqanizmini mexaniki və ya digər təsirlərə (cərrahiyyə, lazer, ionlaşdırıcı şüa, ultrasəs) məruz qoyan müalicə üsullarından istifadə edilməsinə görə inzibati xətanı törətmiş fiziki şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min iki yüz manatdan iki min manatadək məbləğdə cərimə edilirlər.

Psixoloji yardım alan şəxslərin həyatına, sağlamlığına, psixoloji rifahına və ya ləyaqətinə zərər yetirə biləcək tədqiqatlar aparılmasına görə inzibati xətanı törətmiş fiziki şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min iki yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## İtmişdir

Abdullayeva Ölkə Kərbəlayiheydər qızının adına olan 1273[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhəri, Təbriz küçəsi ev 23-də yaşayan Həsənov Rəcəb Cəfərqulu oğlunun adına olan 575 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayon, Şıxmahmud kəndində Xudaverdiyev Fərəməz Məhərrəm oğluna məxsus olan 225 nömrəli 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair" şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Babayev Rövşən Elmixan oğlunun adına olan avtomobilin 75-BD-974 nömrəli dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 470